

# “Azərbaycan xaricdən Avropanın enerji xəritəsini dəyişdirəcək bir ölkə kimi görünür”

## “SOCAR-Türkiyə Emal və Neft Kimya İş Birliyi”nin rəhbəri belə deyir

***❐ Neft və enerji sənayesində 16 ildən çox təcrübəsi olan “SOCAR–Türkiyə Emal və Neft Kimya İş Birliyi”nin baş direktoru Anar Məmmədov işinin hədsiz çoxluğu, səfər və toplantılar, işgüzar görüş və qonaq qəbulları səbəbindən geniş söhbət üçün vaxt tapa bilməsə də, nəhayət, onunla eksklüziv müsahibədə Qafqazın yeni ulduzu olan Azərbaycanın xaricdəki uğurları, Avropanın enerji xəritəsini dəyişdirən layihələr haqqında məlumat ala bildik. Ən önəmlisi isə qardaş Türkiyənin ən böyük xarici sərmayəçisi olan və fəaliyyətini ilbəil genişləndirən “SOCAR-Türkiyə”nin uğurları, eləcə də bütün Türkiyənin, o cümlədən məşhur Egey bölgəsinə yeni bir canlanma gətirən layihələrin uğurları söhbətimiz üçün maraq doğuran mövzu oldu.***

1971-ci ildə Bakıda anadan olan Anar Məmmədov Azərbaycan Tibb Universitetini, daha sonra Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib. İngiltərədəki Neft Araşdırmaları Kollecində neft tədarükü, logistika və ticarət üzrə doktorluq dərəcəsi alıb. Uzun illərdir ki, SOCAR-ın müxtəlif strukturlarında çalışır. 2009–2014-cü illərdə “SOCAR-Gürcüstan”da və 2014–2016-cı illərdə “SOCAR-Yunanıstan”da baş direktor olub. 2016-cı ilin iyul ayında “Petkim”in baş direktoru vəzifəsində işə başlayan Anar Məmmədov, 2019-cu ilin noyabr ayından, eyni zamanda, “SOCAR- Türkiyə Emal və Neft Kimya İş Birliyi”nə də rəhbərlik edir. İngilis, rus və türk dillərini bilir. 3 övladı var.



***– SOCAR-ın xaricdə həyata keçirdiyi ən vacib layihələrdən biri olan “Petkim” haqqında qısa da olsa nə deyərdiniz?***

– SOCAR, 2008-ci ildə “Petkim”in səhmlərinin 51 faizini 2 milyard 40 milyon dollara satın alaraq Türkiyədə fəaliyyətə başladı. 15 əsas fabrik və 6 köməkçi təsisi ilə 3,6 milyon ton illik orta istehsal gücü ilə xammal tədarükçüsü olan şirkətimiz Türkiyənin ilk və tək inteqrasiya neft-kimya müəssisəsidir. 60-a yaxın neft-kimya məhsulu ilə yanaşı, plastik, kimya, qablaşdırma, boru, boya, tikinti, kənd təsərrüfatı, avtomobil, elektrik, elektronika, tekstil, habelə dərman, yuyucu və kosmetika kimi sahələrə də xammal veririk. Bu gün “Petkim” 55 illik keçmişi ilə Türkiyə iqtisadiyyatı və sənayesi üçün strateji əhəmiyyətə sahib, nəhəng bir gücdür.

***– Qeyd etdiniz ki, bu neft-kimya nəhəngi Azərbaycanın xaricdəki ən böyük sərmayələrindən biridir. Bir rəhbər kimi “Petkim”in fəaliyyətini necə qiymətləndirirsiniz? 2019-cu ili necə yola saldınız?***

– “Petkim” insana hörmət, ətraf mühitə həssas istehsal texnologiyası, ölkə iqtisadiyyatına verdiyi dəyər, güclü ictimai və mədəni təsiri ilə bu gün olduğu kimi, gələcəkdə də Türkiyənin və Azərbaycanın qürur qaynağı və ən əhəmiyyətli istehsal güclərindən biri olacaqdır. SOCAR “Petkim”in Türkiyənin, eləcə də Avropanın ən böyük neft-kimya kompleksi və istehsalçısı olmasını hədəfləmiş və buraya etdiyi investisiyalar uğurla davam edir. 2008-ci ildən bəri “Petkim” şirkətinə ildə, təxminən, 100 milyon dollar və bu günə qədər toplam 1 milyard dollar civarında əlavə investisya qoyulmuşdur.

2019-cu ilin neft-kimya sənayesi üçün çətinliyinə baxmayaraq, “Petkim” üçün olduqca uğurlu oldu. Ötən ilin 9 ayında həm qlobal, həm də kimya sahələrində tənəzzül yaşanmasına baxmayaraq, “Petkim” 97 faizlik gücü ilə çalışa bildi və Türkiyə sənayesi üçün etibarlı bir təchizatçı olmağa davam etdi. İlin 9 ayında xalis satışımızı 22 faiz artırdıq və 8,9 milyard türk lirəsinə çatdıq, qazancımız 669 milyon türk lirəsi oldu. 2018-ci ilin sonu ilə müqayisədə öz resurslarımızda 16 faiz artım, aktivlərimizin həcmində isə 10 faiz artım oldu.

***– Türkiyə mətbuatında, az qala, şüara çevrilən bir ifadə var: SOCAR-ın “Petkim”ə qoyduğu sərmayələr Egey bölgəsinə yeni bir həyat gətirdi.***

– “SOCAR-Türkiyə” 2008-ci ildə “Petkim”in böyük hissəsini aldıqdan sonra İzmirin Əliağa rayonu bizim ana investisiya bölgəmiz oldu. Burada STAR NEZ, Petkim KES, SOCAR Dağıtım, SOCAR Depolama və SOCAR Terminal kimi layihələrimizi ardıcıl həyata keçirdik. Bu gün “Petkim”də istehsal etdiyimiz məhsulları ABŞ-dan Avropaya, Yaxın Şərqdən Şimali Afrikaya qədər bir çox nöqtələrə ixrac edirik. Məhsullarımızı 2018-ci ildə 78 ölkəyə sataraq bu sahədə rekord vurduq. Bu müvəffəqiyyət Egey İxracatçılar Birliyinin verdiyi “İlin ən çox ixrac edən şirkəti” və “Kimya sənayesində ən çox ixrac edən şirkət” mükafatlarına layiq görüldü. Mətbuatda da deyildiyi kimi, Əliağaya qoyulan investisiyalarımız və “Petkim”də istehsal olunan məhsullarımıza həm daxili bazarda, həm də xaricdə tələbat bütün Egey bölgəsinə böyük bir canlanma gətirdi.

***– “SOCAR–Türkiyə” 2019-cu ildə inteqrasiya prosesinə başlayıb. Bu, şirkətə hansı üstünlüklər gətirəcək və yeni sistem necə işləyəcək?***

– Türkiyənin ən böyük xarici yatırımcısı “SOCAR–Türkiyə”nin sərmayələrinin məbləği yaxın zamanda 19,5 milyard dollara çatacaq. “SOCAR–Türkiyə”nin investisiya layihələri bir-birini tamamlayır. Bu anlayışla, daha səmərəli istehsal üçün bütün şirkətləri əhatə edən inteqrasiya prosesinə başlandı. “SOCAR–Türkiyə” Emal və Neft Kimya İş Birliyi, “SOCAR–Türkiyə” Qaz İş Birliyi, “SOCAR–Türkiyə” İnnovasiya və Texnologiya İş Birliyi və “SOCAR–Türkiyə” Logistika İş Birliyi yaradıldı.

“Petkim”, STAR Neft Emalı Zavodu, SOCAR Depolama və İzmir Əliağadakı SOCAR Dağıtım şirkətləri “SOCAR-Türkiyə Emal və Neft Kimya İş Birliyi” adı altında toplandı. Deyim ki, STAR NEZ bu inteqrasiyanın bizə hansı üstünlükləri gətirəcəyinin ən konkret göstəricisi idi. STAR Neft Emalı Zavodu və “Petkim”in 2018-ci ilin oktyabr ayında inteqrasiya edilməsinin uğurunu maliyyə nəticələrimizdə də gördük.

Dünyanın müxtəlif yerlərindəki neftayırma zavodlarından xammal idxalı əvəzinə, “Petkim” birbaşa STAR NEZ-dən boru kəməri ilə nafta alaraq logistik xərclərə qənaət etdi. Bu üstünlük “Petkim”in balans hesabatında müsbət əks olundu. “Petkim”in STAR NEZ-dən aldığı xammal ilk 9 ayda 554 min tona çatdı. Əvvəllər fərqli keyfiyyətlərdə idxal olunan xammal əvəzinə, STAR NEZ-dən keyfiyyətli nafta almaq “Petkim” üçün daha yüksək istehsal, məhsuldarlıq və xammal təchizatı təminatı deməkdir. Bundan əlavə, iş birliyimizdəki ortaq xidmətlər və yaratdığımız ortaq infrastruktur iş prosesində sinergiya və yüksək gəlirliyi artırmağa önəm verdi.

***– 2018-ci ildə fəaliyyətə başlamış STAR NEZ 2019-da gözlənilən nəticələrə nail ola bildimi?***

– Türkiyədə real sektorun tək nöqtəyə yatırdığı ən böyük investisiya layihəsi olan STAR NEZ 2018-ci ilin oktyabrında fəaliyyətə başlayıb. 2019-cu ildə tam gücü ilə çalışan zavodda bu günə qədər emal edilmiş xam neftin çəkisi 7,2 milyon tona çatıb. Emal və neft-kimya inteqrasiyasını həyata keçirən STAR NEZ, eyni zamanda, Türkiyənin ilk “Strateji investisiya Təşviq Sertifikatı”nın da sahibidir. STAR NEZ 6,3 milyard dollar sərmayə ilə quruldu. Zavod 4,8 milyon ton dizel və 1,6 milyon ton nafta ilə yanaşı, Türkiyə üçün önəmli olan təyyarə yanacağı və LPG kimi neft məhsulları da istehsal edir. Eyni zamanda, Türkiyənin ilk və tək inteqrasiya neft-kimya zavodu olan “Petkim”in xammal ehtiyacının da, az qala, hamısını ödəyir.

***– Türkiyə mətbuatının “SOCAR–Türkiyə”yə və sizə istinadən yaydığı bir xəbərə də münasibət bildirin: Türkiyənin bundan sonra da 5 “Petkimə” ehtiyacı var...***

– Türkiyənin idxalında enerji, neft-kimya məhsulları böyük yer tutur. “Petkim” Türkiyədəki tək neft-kimya istehsalçısı olmaqla, istehsal etdiyi məhsullarla Türkiyənin ancaq 20 faizini ödəyə bilir. Bu səbəbdən yalnız daxili bazarın tələbatı üçün Türkiyənin, həqiqətən, “Petkim” kimi 5 istehsalçıya ehtiyacı var.

***– Azərbaycanın son vaxtlar həyata keçirdiyi enerji layihələri təkcə Türkiyənin yox, bütün Avropanın gündəmini dəyişməkdədir. TANAP-ın, ardınca “STAR Rafinerisi”nin Türkiyə və Azərbaycan prezidentlərinin iştirakı ilə təntənəli açılış mərasimi ölkəmizin həm iqtisadi, həm də strateji həyatında yeni uğur oldu.***

– Bəli, 2018-ci ilin iyun ayında 6,5 milyard dollara başa gələn TANAP və 6,3 milyard dollar sərmayəsi ilə 2018-ci ilin oktyabr ayında istifadəyə verilən STAR NEZ istismara verildi. Ümumi dəyəri 12,8 milyard dollar olan bu iki nəhəng investisiya uzun müddət idi ki, dünya enerji bazarlarında yaxından izlənilirdi. Cənub Qaz Dəhlizinin ən əhəmiyyətli hissəsi olan TANAP, Azərbaycan qazının Avropaya çatmasını təmin edərkən həm də Türkiyənin bir enerji mərkəzinə çevrilməsinə dəstək verən strateji bir addım oldu.

STAR NEZ isə Türkiyənin neft məhsullarına olan ehtiyacının 25 faizini tək başına qarşılayacaq bir investisiyadır. STAR NEZ sayəsində Türkiyə neft məhsulları idxalından hər il 1,5 milyard dollara yaxın qənaət əldə edir. Bir sözlə, bu investisiyalar strateji baxımdan da çox böyük uğur deməkdir.

***– Bu gün qardaş Türkiyənin neft-kimya nəhəngi ölkəmizə nə qazandırır?***

– SOCAR Qrupunun strateji hədəfləri istiqamətində Türkiyədəki ilk addımı olan “Petkim” “emal-neft-kimya-enerji-logistika-paylama-ötürücü” inteqrasiyanın əhəmiyyətli bir hissəsini təşkil edir. Türkiyənin, həm də Avropanın önəmli neft-kimya kompleksinə çevrilmək yolunda İzmir Əliağada atılan bu addımlar Azərbaycanın bu sahədəki təcrübəsini və uzaqgörənliyini dünya enerji sektoruna göstərmək baxımından çox dəyərlidir.

“Petkim” qlobal miqyasda iqtisadi, sosial və ekoloji fayda təmin etməyə yönəlmiş Azərbaycan şirkəti olan SOCAR-ın bu istiqamətdə həyata keçirdiyi önəmli beynəlxalq layihələrdən biridir. Türkiyə və Azərbaycan iqtisadiyyatına dəyər qatan işlərimiz iki qardaş ölkənin iqtisadiyyatının böyüməsinə və inkişafına da dəstək verməkdədir.

***– “Petkim”də çalışan azərbaycanlıların fəaliyyəti barədə nə deyərdiniz?***

–İşçilərinə potensiallarını nümayiş etdirmək üçün fürsət verən, ədalətli, şəffaf və dəyərli insan resursları siyasətinə sahib olan “Petkim”də çalışanların sayı 2 min 500 nəfərdən çoxdur. STAR NEZ-də də 1200 nəfər işləyir. Neft və təbii qaz sənayesindəki uğurları ilə dünya nəhəngi olmaq yolunda irəliləyən SOCAR təcrübəli mütəxəssislərin çoxillik təcrübələrini Türkiyədəki şirkətlərə də öyrədir. “Petkim” onlardan biridir. “SOCAR-Türkiyə”nin bütün layihələrində olduğu kimi, həm “Petkim”də, həm də STAR NEZ-də Azərbaycan vətəndaşlarına məşğulluq imkanı yaradırıq. Bu gün şirkətlərimizdə həm rəhbərlikdə, həm də digər ümdə sahələrdə azərbaycanlılar fəal iştirak edirlər.

“SOCAR-Türkiyə” azərbaycanlı gənclərə dəstək verir. Təcrübə proqramı və Bakı Ali Neft Məktəbi ilə birlikdə həyata keçirilən məzun proqramı çərçivəsində Əliağa yarımadasında karyerasının ilk addımını atan bir çox azərbaycanlı var. Məsələn, 2019-cu ildə azərbaycanlı tələbələrə Əliağadakı müəssisələrimizdə təcrübə keçməyə imkan yaratdıq. “Petkim” və STAR Neft Emalı Zavodunda bacarıqlı tələbələrimiz üçün məşğulluq qapılarını açdıq, eyni zamanda, sənayemizin ehtiyacı olan ixtisaslı kadrların hazırlanmasına da öz töhfəmizi veririk.

***– Bu gün bütün dünya, eyni zamanda, qardaş Türkiyədə görüşdüyümüz insanlar və Türkiyə mətbuatı Azərbaycanın uğurlarından danışır. Ölkəmiz kənardan necə görünür?***

– Dünyanın böyük iqtisadi mənzərəsinə nəzər yetirdikdə, istehsal gücü və əlavə dəyər istehsalı önə çıxır. Son 10 ildə Azərbaycanın bu istiqamətdə atdığı addımlar dünyada maraqla izlənilir. Kənardan baxanda, Azərbaycan əlindəki qiymətli mənbələrdən səmərəli istifadə edən və Avropanın enerji xəritəsini dəyişdirəcək böyük layihələr həyata keçirən bir ölkə kimi görünür.

***– 2020-ci ildən nə gözləyirsiniz?***

– Biz Türkiyə iqtisadiyyatının gücünü bilirik və buna inanırıq. Uzunmüddətli planlaşdırma ilə də sərmayələrimizi planlaşdırırıq. “SOCAR-Türkiyə” üçün 2020-ci il TANAP və STAR NEZ kimi nəhəng layihələrin öz nəticələrini göstərərək bir il olacaq. Xammal ehtiyacımızın mənbəyi olan STAR NEZ-in 2020-ci ildə istehsalımıza təsirini aydın görəcəyik. Hesab edirəm ki, 2020-ci il istehsal gücümüzü daha da genişləndirəcəyimiz, həm Azərbaycan, həm də Türkiyə iqtisadiyyatına böyük töhfələr verəcəyimiz bir il olacaq.

***Namiq QƏDİMOĞLU, “Xalq qəzeti”***

***İzmir – Bakı***